DOI: 10.5281/zenodo.14281991

# İDMAN FƏALİYYƏTİ HAQQINDA MÜQAVİLƏLƏRİN BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQDA TƏNZİMLƏNMƏSİ

**Məmmədzadə Turan Əlamət oğlu,**
**BDU Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının magistri.**
e-mail: xalillisona@gmail.com

*Məqalədə idman fəaliyyəti haqqında müqavilələrin beynəlxalq və milli hüquqda tənzimlənməsi barədə məsələ tədqiq olunur. Qeyd edilir ki, tədqiqatın məqsədi idman sahəsində beynəlxalq normaların və digər beynəlxalq mexanizmlərin, onlarla qarşılıqlı şəkildə isə Azərbaycan Respublikası qanunvericiliyinin əsas xüsusiyyətlərinin nəzəri, hüquqi və praktiki baxımdan araşdırmaqdan ibarətdir.*

*Həmçinin idman sferasında beynəlxalq mexanizmlərin Azərbaycan Respublikasının milli qanunvericiliyinə implementasiyası ilə bağlı problemlər nəzərdən keçirilir. Eyni zamanda, universal beynəlxalq mexanizmlərin idman sahəsində əməkdaşlığın nizamlanmasında oynadığı rol və onun hüquqi aspektlərinə xüsusi diqqət yetirilir.*

**Açar sözlər:** idman fəaliyyəti, beynəlxalq müqavilə, milli qanunvericilik, idman hüququ, olimpiya hərəkatı, beynəlxalq əməkdaşlıq, idman-hüquq normaları.

Tədqiqat mövzusunun aktuallığı ilə bağlı, hər şeydən əvvəl, qeyd etməliyik ki, sosial mühitin mühüm sahələrindən olan bədən tərbiyəsi və idman şəxsiyyətin kamilləşməsinə, insanların sağlamlığının qorunmasına, əmək ehtiyatlarının yüksək səmərəliliyinin təmin edilməsinə xidmət etməklə ölkənin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır. Fiziki tərbiyə və idman insan fəaliyyətinin müstəqil növünü təşkil edir. Onun müasir cəmiyyətdə yeri və rolu böyükdür. Fiziki tərbiyə insanın sağlam həyat tərzini formalaşdırır, bu da, öz növbəsində, ictimai münasibətlərə ciddi şəkildə müsbət təsir edir. Qədim mədəniyyətə və dövlətçilik ənənələrinə malik olan Azərbaycanda idman hər zaman cəmiyyətin inkişafının əhəmiyyətli faktorlarından biri olmuşdur. Ümummilli lider Heydər Əliyev idmanın əhəmiyyətindən bəhs edərək qeyd edirdi: "İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir" [1, s.227].

İdmanın Azərbaycanda inkişaf mərhələləri yazılı qaynaqlarda və maddi mədəniyyət nümunələrində öz geniş əksini tapmışdır. Atlı idman oyunları, qol yarışı, güləş, şahmat kimi idman növləri Azərbaycanda hələ qədim dövrlərdə geniş yayılmışdır. Orta əsrlərdə də bu idman növlərinin inkişafı davam etmişdir. Yeni dövrdə, xüsusilə də, sovet hakimiyyəti illərində Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafına xüsusi diqqət ayrılmış, 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində bu sahədə böyük canlanma başlamışdır. Ən böyük uğurlar, başlıca olaraq, güləş, boks, yüngül atletikanın müxtəlif növlərində olmuşdur.

Azərbaycanın zəngin idman ənənələri dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə bədən tərbiyəsinin və idmanın müxtəlif növlərinin inkişafı üçün geniş imkanlara yol açdı. Artıq bu sahə dövlətin daxili və xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış etməyə başladı. 1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasında ali hakimiyyətə qayıdışından sonra onun başçılığı altında ölkədə həyata keçirilən köklü islahatlar, bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsinin təşkilində və idmanın inkişafında da öz müsbət təsirini göstərdi.

Heydər Əliyev məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra idmana diqqət daim yüksək idi. Baxmayaraq ki, ölkəmiz müstəqilliyimizin ilk illərində iqtisadi cəhətdən o qədər də güclü deyildi, ölkədə çoxlu çətinliklər var idi, problemlər var idi... Buna baxmayaraq, xalqımızın Ümummilli lideri Heydər Əliyevin daim idmana, olimpiya hərəkatına diqqəti çox yüksək səviyyədə idi. Azərbaycanın iqtisadi cəhətdən ən çətin məqamlarında idmana xüsusi münasibət var idi. İdmançılar da bunu hiss edirdilər. Məhz bu diqqətin, qayğının nəticəsində Azərbaycanda idman inkişaf edirdi" [2, s.283].

Azərbaycan Respublikasında idmanın inkişaf perspektivlərini müəyyən edə biləcək dövlət siyasətinin və xüsusi idman strategiyasının hazırlanması ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılmasını da sürətləndirdi: 1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı və Prezidentin bu fərmanı ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılması üçün hüquqi əsas yaratdı. Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə 1995-ci ilin martında "Azərbaycan İdman Fondu" yaradıldı. 1997-ci ildə "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanun ölkədə bədən tərbiyəsi və idman sahəsində münasibətləri tənzimləməyə, Azərbaycan Respublikasının idman siyasətini müəyyənləşdirməyə, xüsusi idman strategiyasının qurulmasına yönəlmiş hüquqi addım idi.

Heydər Əliyevin inkişaf və quruculuq xəttini uğurla davam etdirən Prezident İlham Əliyev ölkədə bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi sahəsində dövlət strategiyasını ardıcıl həyata keçirməyə başladı. Bu istiqamətdə İlham Əliyevin önəmli addımlarından biri 2004-cü ildə ölkədə bədən tərbiyəsi və idmanın gələcək illərdə sistemli inkişafını, bu sahənin hüquqi, iqtisadi, sosial bazasının möhkəmləndirilməsini təmin edəcək Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafına dair müvafiq Dövlət Proqramının qəbul edilməsi oldu. 2005-ci ildə İlham Əliyevin imzası ilə Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005- 2009-cu illər; 2011-2015-ci illər) qəbul edildi. Proqram gənc nəslin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması da Dövlət Proqramının vacib müddəalarından biri idi.

Tədqiqat işinin qarşısında qoyulan əsas məqsəd idman fəaliyyəti sahəsində müqavilələrin hüquqi tənzimlənməsi problemlərinin təhlili və onların aradan qaldırılmasına dair təkliflərin işlənib hazırlanması olmuşdur. Qısa sözlə desək, tədqiqatın məqsədi idman sahəsində beynəlxalq normaların və digər beynəlxalq mexanizmlərin, onlarla qarşılıqlı şəkildə isə Azərbaycan Respublikası qanunvericiliyinin əsas xüsusiyyətlərinin nəzəri, hüquqi və praktiki baxımdan araşdırmaqdır.

Qarşıya qoyulmuş məqsədin yerinə yetirilməsi üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

– idman sahəsində beynəlxalq əməkdaşlığın formalaşmasının tarixi təşəkkülü və beynəlxalq idman hüququna təsirinin əsas aspektlərinin araşdırılması;

– universal beynəlxalq mexanizmlərin idman sahəsində əməkdaşlığın nizamlanmasında rolunun müəyyənləşdirilməsi;

– idman sahəsində regional beynəlxalq-hüquqi tənzimetmənin spesifik xüsusiyyətlərinin təhlili;

– idman fəaliyyəti sahəsində Azərbaycan Respublikasının milli qanunvericiliyi və implementasiya problemlərinin tədqiqi, təkliflərin işlənib hazırlanması.

Məqalədə aşağıdakı elmi müddəalar müzakirəyə çıxarılmışdır:

1. idman sahəsində beynəlxalq əməkdaşlığın formalaşmasının tarixi təşəkkülü və beynəlxalq idman hüququna təsirinin əsas aspektlərinin tədqiqi;

2. idman münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində idman diplomatiyasının rolunun araşdırılması;

3. universal beynəlxalq mexanizmlərin idman sahəsində əməkdaşlığın nizamlanmasında rolunun nəzərdən keçirilməsi;

4. idman sahəsində regional beynəlxalq-hüquqi tənzimetmənin spesifik xüsusiyyətləri analiz edilməsi;

5. idman sahəsində beynəlxalq mexanizmlərin Azərbaycan Respublikasının milli qanunvericiliyinə implementasiyasının öyrənilməsi.

İdman sahəsində beynəlxalq əməkdaşlığın formalaşmasının tarixi təşəkkülü və bu prosesin beynəlxalq idman hüququna təsirinin əsas aspektləri də xüsusi maraq doğurur. Belə ki, XX əsrin ortalarında yüzə yaxın beynəlxalq idman assosiasiyası yaradıldı.Bu gün bədən tərbiyəsi və idman sahəsində iki yüzdən çox qlobal və regional qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Hazırda idman beynəlxalq əlaqələrin ayrılmaz hissəsinə çevrilib. O, beynəlxalq əməkdaşlığın gücləndirilməsi vasitəsi kimi çıxış edir, münaqişələrin aradan qaldırılması və mədəniyyətlərarası dialoqun qurulması vasitəsi kimi çıxış edir. Müasir idman çox mürəkkəb və spesifik sosial-iqtisadi sistemdir ki, burada idman qanunvericiliyi müxtəlif ictimai münasibətləri tənzimləmək məqsədi daşıyır. Buna görə də, idman sahəsi beynəlxalq səviyyədə xüsusi hüquqi anlayış və yüksək keyfiyyətli hüquqi tənzimlənmə tələb edir. Ona görə də, hazırda idman sahəsində beynəlxalq münasibətləri tənzimləyən normalar toplusunun fəal formalaşdırılması prosesi gedir.

Müasir beynəlxalq hüquq qlobal irs kimi daim təkamül və mütərəqqi inkişaf vəziyyətindədir. Beynəlxalq hüquq sistemində yeni sahələr yaranır, mövcud sahələr sistemləşdirilir, beynəlxalq normativ hüquqi aktlar sistemi daim genişlənir. Beynəlxalq həyatın real şərtləri ilə müəyyən edilən, nisbətən, özünəməxsus avtonom sektorların (alt sektorların) beynəlxalq hüquqdan ayrılması pro-

sesi gedir. Bir qayda olaraq, beynəlxalq hüququn sahələrinin formalaşması real həyatda yaranan obyektiv proses idi və beynəlxalq hüququn subyektləri arasında münasibətlərin getdikcə çoxşaxəli və rəngarəng olması ilə şərtlənirdi. Beynəlxalq hüququn sahələrinin ayrılması həm də bir tənzimləmə predmetinə aid olan eynicinsli beynəlxalq hüquq normaları sistemlərinin yaranması ilə əlaqədardır. Hüquq sahələri obyektiv şəkildə formalaşır və elm (doktrina) tərəfindən müəyyən edilir.

Yuxarıda göstərilənlər beynəlxalq idman hüququna aiddir. Eyni zamanda, beynəlxalq idman hərəkatları idman sahəsində beynəlxalq əməkdaşlığın inkişafına və idman məsələlərinə dair beynəlxalq normaların formalaşmasına mühüm töhfə verib.

Beynəlxalq idman əlaqələrinin formalaşması və Beynəlxalq İdman Hərəkatının (BİH) daha da inkişafı ilə bağlı qeyd edə bilərik ki, olimpiya sferasında beynəlxalq idman münasibətlərinin tənzimlənməsinin başlanması üçün güclü təkan Pyer de Kubertenin təşəbbüsü ilə 1894-cü ilin yayında Parisdə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) yaradılması olmuşdur [84, s.17].

Beləliklə, beynəlxalq idman hüququnun formalaşması BİH və BOK-un yaranması ilə əlaqələndirilə bilər.

Eyni zamanda, ilk idman federasiyaları da formalaşmağa başladı. Beynəlxalq idman federasiyaları BOK tərəfindən tanınan beynəlxalq qeyri-hökumət təşkilatlarıdır. Bir qayda olaraq, bunlar dünya idman səhnəsində təmsil olunan bir və ya bir neçə idman növü üzrə assosiasiyalardır. Milli federasiyalar belə assosiasiyaların üzvləridir, lakin, öz idman növlərini idarəetmə üzrə forma və üsullarını müəyyən etməkdə müstəqilliyə malikdirlər. Bununla belə, beynəlxalq assosiasiyalar bütün idman tədbirlərinin Olimpiya Xartiyasına uyğun şəkildə həyata keçirilməsini təmin edirlər. Beynəlxalq idman federasiyalarının əsas vəzifələri sistemli dünya idman tədbirlərinin monitorinqi və idarə olunması hesab olunur. Bu, o deməkdir ki, federasiyalar oyunun bərabərliyinə nəzarət edir və yarışların müntəzəmliyinə zəmanət verir. Bundan əlavə, federasiyalar idmanın təşkili və idarə edilməsi ilə bağlı BOK-a təkliflər və sənədlər hazırlaya bilər. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.15-ci maddəsində bu barədə tənzimləmə nəzərdə tutulmuşdur.

Beləliklə, beynəlxalq idman federasiyaları idman hüququ mənbələrinin ilk yaradıcıları olmuşdur. İdman universal bir fenomenə çevrilir və ildən-ilə daha çox insan idmanla məşğul olur. Beynəlxalq idman təşkilatları isə XX əsrdən başlayaraq beynəlxalq münasibətlərdə getdikcə daha mühüm rol oynamağa başladı və aktorlardan biri kimi qəbul olunmağa başladı. Müasir dünyada onlar beynəlxalq idman əlaqələrinin inkişafı üçün əsas instituta çevriliblər. Müasir dünyada beynəlxalq idman təşkilatlarını təkcə idman diplomatiyasının deyil, ümumiyyətlə, beynəlxalq münasibətlərin də aktoru hesab etmək olar.

Lakin, qeyd etməliyik ki, universal və regional qurumların da normayaradıcılıq prosesi beynəlxalq idman münasibətlərinin kompleks inkişafına öz təsirini göstərməkdədir. Nümunə qismində MDB-nin bu sahədə qəbul edilən, bir sıra hallarda isə universal beynəlxalq mexanizmlərə əsaslanan aktlarını göstərmək olar. Onlardan biri də Beynəlxalq Əmək Təşkilatının 1997-ci il Konvensiyasının əsas müddəaları nəzərə alınmışdır ki, onlardan biri də qəbul edilmiş "Özəl məşğulluq agentliklərinin fəaliyyəti haqqında" Model Qanundur. Müstəqil Dövlətlərin 2010-cu ildə kifayət qədər olduğu qeyri-dövlət məşğulluq agent-

liklərinin səlahiyyətləri ətraflı təsvir edilmişdir. Bu gün konkret fəaliyyət sahəsini tənzimləmək üçün müəyyən hüquqi rejim sosial münasibətlərin qurulduğu normalara əsaslandığından, idman agentliyinin fəaliyyətinin tənzimlənməsi üçün hüquqi rejimin yaradılmasının zəruri olması qənaəti kifayət qədər əsaslandırılmayacaq. Əlavə olaraq, qeyd etmək lazımdır ki, agentliklərin fəaliyyəti təkcə idmançıya layiqli işəgötürən tapmaqdan və onunla əmək müqaviləsi bağlamaqdan ibarət deyil, onun fəaliyyəti həm də idmançının klublar arasında transferini, onun təmsil etdiyi maraqlar və bir çox başqa aspektləri, idmançının münasibətlərində vasitəçi kimi çıxış etməsini nəzərdə tutur. Bu cür hərəkətlər, fikrimizcə, müfəssəl şəkildə təsvir edilmiş və idman icmalarının nizamnaməsində təsbit edilmişdir ki, bu da, sonuncuya idman agentinə peşəkar səriştəsi ilə bağlı xüsusi tələblər qoymağa imkan verir. Məhz müəyyən agentin tələblərinin mövcudluğu əsasında idman təşkilatı öz fəaliyyətini lisenziyalaşdırmaq hüququna malikdir. Agentlik münasibətlərinin mahiyyətini əmək qanunvericiliyi çərçivəsində nəzərə alsaq, o zaman belə səlahiyyətlər dərhal qeyri-hökumət idman təşkilatlarının hüquqlarının siyahısından çıxarılır [37, s.11].

Bu gün beynəlxalq idman hüquq əlaqələri, əsasən, Olimpiya və Paralimpiya hərəkatı çərçivəsində inkişaf edir. Olimpiya Hərəkatına aşağıdakılar daxildir: Beynəlxalq Olimpiya Komitəsi (BOK), Olimpiya Təşkilat Komitələri (OTK), Milli Olimpiya Komitələri (MOK), Beynəlxalq İdman Federasiyalar (BİF), milli assosiasiyalar, klublar, idmançılar, hakimlər, assosiasiyalar və BOK tərəfindən tanınan bütün aidiyyəti təşkilat və qurumlar.

Olimpiya Hərəkatı Olimpiya Xartiyasını rəhbər tutmağa razı olan və BOK-un səlahiyyətlərini tanıyan bütün hüquqi şəxslər tərəfindən yaradılır.

Beynəlxalq idman hüququ tarixində 30 iyun 1984-cü il tarixini – Lozannada BOK-un təşəbbüsü ilə yaradılmış İdman Arbitraj Məhkəməsinin (CAS) təsis sənədlərinin qüvvəyə mindiyi günü qeyd etməmək olmaz. Bu sənəd qüvvəyə mindikdən sonra 1994-cü ildə CAS qarşısında tərəflərin hüquq bərabərliyinə riayət olunmasını təmin edən idman sahəsində Beynəlxalq Arbitraj Şurasının yaradılması yolu ilə müstəqilliyini bərqərar etmişdir [82, s.34-35].

Beynəlxalq idman arbitrajının qərarları da beynəlxalq idman hüququnun əhəmiyyətli mənbələrindən sayılır. Nümunə qismində Avropa İttifaqı çərçivəsində idman hüquqşünaslığının inkişafında mühüm rol oynamış –XX əsrin 90-cı illərində baxış predmeti olmuş sensasiyalı “Bosman” işini göstərmək olar ki, bu, həm də peşəkar futbolda mövcud oyunçu transfer sistemində təkcə Aİ ölkələrində deyil, həm də üçüncü ölkələrdə idman federasiyalarının aktları ilə milli və beynəlxalq hüquq normaları arasında əlaqə məsələsini gündəmə gətirdi.

Ən çox rezonans doğuranlardan biri Belçika Futbol İttifaqının Jan-Mark Bosmana qarşı, Lyej Kral Klubu Jan-Mark Bosmana, UEFA Jan-Mark Bosmana qarşı 15 dekabr 1995-ci il tarixli işlərində qərar idi. Bu mübahisəyə baxılarkən, peşəkar futbolçulara münasibətdə işçilərin sərbəst hərəkəti prinsipini təsbit edən və idmançılar klubdan kluba keçərkən transfer qaydalarında, xüsusən də, Aİ-dən olan əcnəbi oyunçular üçün kvotalarda dəyişikliklərə səbəb olan presedent yaranıb [79, s.236].

“İqor Simutenkova Təhsil və Mədəniyyət Nazirliyinə” qarşı iş üzrə İspaniya Kral Futbol Federasiyası Rusiya idmançılarına qarşı

iş şəraiti, mükafatlandırma və ya işdən çıxarılma baxımından Aİ vətəndaşları ilə müqayisədə ayrı-seçkilik yaradan müddəaları ləğv etdi və İspaniya ilə Rusiya Federasiyası arasında bərabərlik prinsipinin genişləndirilməsinə və Avropada fərdlərin iş şəraiti hüququnun normal həyata keçirilməsinə xidmət etmişdir. Avropa İttifaqı Ədalət Məhkəməsinin qərarları Avropa hüququnda son dərəcə əhəmiyyətlidir, çünki onlar presedent xarakterinə görə Aİ üzv-dövlətlərinin milli məhkəmələri və sonradan Məhkəmənin özü üçün məcburidir.

Beləliklə, bu əməkdaşlığın inkişaf tarixində aşağıdakı mərhələləri fərqləndirmək olar:

1. Olimpiya Oyunlarının təşəkkülü və inkişafı;

2. Beynəlxalq idman təşkilatlarının sayının artırılması;

3. İdman diplomatiyasının əhəmiyyətinin artırılması, idmanın BMT tərəfindən diplomatiya aləti kimi tanınması.

Qeyd edək ki, idman münasibətlərinin hüquqi tənzimlənməsi zərurəti, ilk növbədə, peşəkar idmanın artan kommersiyalaşması prosesi ilə bağlı olub. XX əsrdə iqtisadi fəaliyyət sahəsi kimi peşəkar idman gəlir gətirməyə başladı və bu, idman yarışlarının təşkili və keçirilməsi üçün getdikcə daha çox kapital cəlb etdi. Peşəkar idmançıların gəlirləri də artıb. Daha yüksək maaş alan, yaxud gəlir əldə edən idmançılarla komanda idman klubları arasında əmək münasibətlərinin qeydiyyatı oyunçuların agenti qismində çıxış edən vəkillərin iştirakı ilə həyata keçirilməyə başlandı. Digər tərəfdən, fiziki və hüquqi şəxslər idman münasibətlərinə daxil olmaqla, xüsusən, əqli mülkiyyət və kütləvi informasiya vasitələrindən istifadə məsələləri ilə bağlı, o cümlədən idmançının fotoşəklini çəkmək və idman yarışlarını yayımlamaq hüquqlarını əldə etmişlər.

Dövlət üçün beynəlxalq idman tədbirlərində iştirakın bir tərəfi də onun imicini gücləndirməkdir. Söhbət Olimpiya oyunlarının, dünya və ya Avropa çempionatlarının keçirilməsindən gedir. Dünya miqyaslı yarışlara evsahibliyi etmək imkanı əldə edən hər bir dövlət onları elə təşkil etməyə çalışır ki, onun yaddaşı firavan, qonaqpərvər bir dövlət kimi qorunsun. Bu hadisə parlaq və unudulmaz olmalıdır. Təbii ki, bu, dövlətin nüfuzu və mövqelərini möhkəmləndirmək və ya təkmilləşdirmək istəyi ilə bağlıdır. Qələbə dövlətə nüfuz və tanınma gətirir. Bu cür tədbirlərin öz ərazisində qəbul edilməsi dövlətin ambisiyalarını həyata keçirmək üçün lazımdır. Eyni zamanda, dövlət tərəfindən idman yarışlarının keçirilməsi investorların diqqətini cəlb etdiyindən və dünyanın hər yerindən turist axınının artmasına səbəb olduğu üçün təkcə xərclər deyil, həm də fayda gətirir.

Eyni zamanda, beynəlxalq yarışların nəticələri təkcə idmançıların uğurlarından və faktiki nəticələrindən deyil, həm də bu nəticələrin hüquqi şərhindən və yaranan münaqişələrdən asılıdır. İdmançıların beynəlxalq yarışlarda çıxışlarının keyfiyyəti həm də düzgün təşkildən, o cümlədən bu gün idman nailiyyətlərindən heç də az əhəmiyyət kəsb etməyən prosedurun aydınlığından asılıdır.

Bu baxımdan, həmçinin müasir idmanın qloballaşması şəraitində idman hərəkatının beynəlxalq tənzimlənməsi, onun məzmunu və spesifikliyi, keyfiyyəti və səmərəliliyi mövzusu aktuallaşır.

Beləliklə, idman sahəsində beynəlxalq əməkdaşlığın inkişafında və beynəlxalq idman hüququnun formalaşmasında əsas amillər qismində aşağıdakıları göstərmək olar:

– beynəlxalq idman təşkilatlarının inkişafı;
– Olimpiya hərəkatı;
– idmanın kommersiyalaşdırılması;
– idmanın dövlətin imicinə təsiri;
– idman diplomatiyasının rolunun artırılması.

Beynəlxalq idman hüququ beynəlxalq idman fəaliyyətində yaranan ictimai münasibətləri tənzimləyən, bir-biri ilə əlaqəli olan norma və qaydalar sistemidir. Öz növbəsində, beynəlxalq idman fəaliyyətlərinə aşağıdakı əsas istiqamətlər daxildir:

1) beynəlxalq idman təşkilatlarının, o cümlədən BOK, ISF, ÜADA və s.-nin təşkili və fəaliyyəti, onların milli idman strukturları ilə qarşılıqlı əlaqəsi;

2) beynəlxalq idman yarışlarının, o cümlədən Olimpiya oyunlarının, habelə digər beynəlxalq idman və idman-əyləncə tədbirlərinin təşkili və keçirilməsi;

3) peşəkar idman sahəsində beynəlxalq əlaqələr, o cümlədən idman sahəsində əmək resurslarının beynəlxalq hərəkəti, idmançının (məşqçinin) bir klubdan digərinə beynəlxalq transferləri, icarələr, digər transfer növləri, habelə idman agentlərinin beynəlxalq fəaliyyəti;

4) idman sahəsində beynəlxalq əməkdaşlıq və xarici investisiyalar;

5) idman sənayesi sahəsində beynəlxalq kommersiya fəaliyyəti, o cümlədən bədən tərbiyəsi, idman və turizm məqsədləri üçün məhsullar istehsal edən birgə müəssisələrin təşkili;

6) idman fəaliyyəti sahəsində əqli mülkiyyət hüquqlarının beynəlxalq müdafiəsi ilə bağlı münasibətlər;

7) idman sahəsində beynəlxalq vergi münasibətləri;

8) beynəlxalq idman növlərində xəsarətlər;

9) qlobal antidopinq siyasəti və beynəlxalq idman hərəkatında dopinqə qarşı mübarizə;

10) idman fəaliyyəti sahəsində cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlıq;

11) beynəlxalq idman mübahisələrinin həlli;

12) yuxarıdakı istiqamətlərlə əlaqəli digər fəaliyyət sahələri [70, 47-48].

Şübhəsiz ki, beynəlxalq idman hüququnun formalaşması və inkişafı bu fənnin tədrisi ilə sıx bağlılığa malikdir. Bu baxımdan, xarici təcrübənin öyrənilməsi vacibdir. İdman hüququnun tədrisində bu təcrübədən respublikanın hüquq və idman ali məktəblərinin tədris prosesinə analoji hazırlıq kurslarının tətbiqi zamanı, habelə ali peşə təhsili sahəsində vəzifəli şəxslər tərəfindən təhsildə idman hüququnun tədrisinin təşkili üçün uğurla istifadə oluna bilər. Göstərilən kontekstdə Fransanın bu sahədə təcrübəsi xüsusi maraq doğurur. Beləliklə, qeyd edə bilərik ki, İdman Hüququ üzrə Araşdırma Mərkəzi (Marsel) Eks-Marsel Hüquq və Siyasi Elmlər Fakültəsinin İqtisadi Hüquq Mərkəzinin bir hissəsidir, o da, öz növbəsində, Paul Sezan Universitetinin (Aix-Marsel III) tərkib elementidir. Mərkəz 2000-ci il oktyabrın 1-də Eks-Marsel şəhərinin Hüquq və Siyasi Elmlər fakültəsində təşkil edilib və həm idman hüququ sahəsində mütəxəssislərin əsas hazırlığını (magistratura), həm də davamlı peşə hazırlığı və təkmilləşdirməni təmin edir [83, s.101].

Böyük Britaniyanın təcrübəsi xüsusi diqqətə layiqdir. Beləliklə, Nottingem Trent Universitetinin Hüquq Fakültəsi idman hüququ üzrə magistr proqramı təklif edir.Təhsilə hazırlıq Britaniya və beynəlxalq (həm qlobal, həm də regional-Avropa) idman hüququnun öyrənilməsini əhatə edir. Bəzi modullar mövcud idman hüquqşünaslarının bacarıqlarını artırmaq üçün istifadə edilə bilər. İsveçdə

idman hüququnun tədrisinə çox diqqət yetirilir. Xüsusən, Malmö Universitetinin Hüquq Fakültəsi "İdman hüququ və idman etikası" təhsil proqramını həyata keçirir.Təlim kursu idmanın hüquqi tənzimlənməsi problemlərinə diqqət yetirməklə yanaşı, idmanın daha geniş (sosial, dəyər, iqtisadi və s.) problemlərinə də toxunur [68, s.20].

İsveçrənin Neuşatel şəhərində Beynəlxalq İdman Təhsil Mərkəzi də diqqətəlayiqdir. Bu mərkəz 1995-ci ildə Beynəlxalq Futbol Federasiyası (FIFA), Neuşatel Universiteti (Neuşatel kantonu, İsveçrə) tərəfindən Neuşatel şəhəri və kantonu ilə birlikdə yaradılmışdır. Universiteti idman hüququ ixtisası üzrə hüquq magistrləri bitirir. Beynəlxalq İdman Təhsil Mərkəzinin fəaliyyəti üç əsas istiqamət üzrə həyata keçirilir:

– elmi tədqiqat;
– konsaltinq;
– təhsil.

ABŞ-da idman hüququnun tədris təcrübəsi də maraq doğurur. Belə ki, Amherstdəki Massaçusets Universitetinin Eyzenberq İdarəetmə Məktəbi idmanın təşkili və hüquqi tənzimlənməsi, idman idarəçiliyi və idman sənayesi sahəsində ABŞ-ın ən nüfuzlu təhsil müəssisələrindən biridir. Məktəbin tərkibində İdman idarəetmə fakültəsi fəaliyyət göstərir. İdman menecmenti fakültəsi 1971-ci ildə yaradılmışdır. O vaxtdan bəri onun məzunları idman fəaliyyətinin təşkili və idarə edilməsinin müxtəlif sahələrində 3000-dən çox yüksək ixtisaslı mütəxəssisi əhatə etmişdir. Həm bakalavr, həm də magistr proqramları təklif olunur. ABŞ-da idman hüququ sahəsində digər böyük təhsil mərkəzi 1989-cu ildə əsası qoyulmuş Market Universitetinin Hüquq Məktəbində Milli İdman Hüququ İnstitutudur. Fərqli idman və idman sənayesi ilə əlaqəli təlim və tədqiqatları mümkün qədər geniş əhatə etməyə çalışan Eyzenberq İdarəetmə Məktəbinin yuxarıda adıçəkilən İdman İdarəetmə Departamenti, Milli İdman Hüququ İnstitutu öz fəaliyyətində də olsa, idman hüququ mövzusuna xüsusi diqqət yetirir, ən müxtəlif sahələri əhatə edir [46, s.29].

Tüleyn Universitetinin Hüquq Məktəbi (Yeni Orlean, Luiziana, ABŞ) həm də ABŞ-da idman hüququ üzrə magistr dərəcələri verən azsaylı universitet şöbələrindən biridir. Fakültədə tələbələr tərəfindən idarə olunan İdman Hüququ Cəmiyyəti fəaliyyət göstərir, o, müntəzəm olaraq, idman və idman hüququ dünyasının aparıcı simaları ilə aktual hüquqi problemləri və narahatlıqları müzakirə etmək üçün görüşlərə ev sahibliyi edir və tez-tez aparıcı idman hüquqşünaslarının və iş adamlarının iştirak etdiyi ictimai proqramlara sponsorluq edir. Hər il Tüleyn Məhkəmə Simulyasiyası Moot Məhkəməsi müasir hüquqi məsələlər və idman sənayesi ilə bağlı məsələlər üzrə Milli Moot Məhkəməsi Müsabiqəsinə ev sahibliyi edir. Qalibin tərcümeyi-halı hər il Journal of Sports Lawyers jurnalında dərc olunur. Tələbələr həmçinin illik İdman Danışıqları Müsabiqəsində iştirak edirlər. Nyu-Heyvendə (Konnektikut, ABŞ) yerləşən Yale Universitetinin Hüquq Məktəbi idman və hüquq üzrə kurs təklif edir. Tədqiqat üç illik J.D. proqramına uyğun olaraq, həyata keçirilir [77, s.37].

İdman diplomatiyası idman münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində baza elementlərindən biri kimi çıxış edir. Belə ki, beynəlxalq idman münasibətlərinin tənzimlənməsində idman diplomatiyasının rolu əvəzsizdir. Sözügedən məsələnin təhlilinə keçməzdən öncə, ilk növbədə, diplomatiya anlayışına nəzər yetirilməsi, daha sonra isə tədqiqatın predemetinin konkretləşdirilməsi zəruri əhəmiyyət kəsb edir.

Qeyd etməliyik ki, aparılmış elmi tədqiqatlarda diplomatiya müxtəlif aspektlər baxımından qiymətləndirilmişdir. Bir sıra müəlliflərin fikrincə, diplomatiya dövləti beynəlxalq aləmdə təmsil edən mühüm fəaliyyət istiqaməti sayılmaqla, beynəlxalq münasibətlərin bütün sahələrində ümumiləşdirici və xüsusiləşdirici, habelə sistemləşdirici, əlaqələndirici, bağlayıcı, şərtləndirici və istiqamətverici əhəmiyyətə malikdir [18, s.179].

Qeyd olunanları ümumiləşdirərək, diplomatiya ilə bağlı təcrübi mənada, habelə elm və sənət olaraq, aşağıdakı nəticələrə gəlmək olar:

– diplomatiya dövlət, hökumət başçılarının və xüsusi xarici əlaqələr orqanlarının dövlətlərin xarici siyasətinin məqsəd və vəzifələrini həyata keçirmək, habelə xaricdə dövlətin maraqlarını qorumaq üçün rəsmi fəaliyyətidir. Bu yanaşma ən çox yayılmışdır və ona ekspertlərin böyük əksəriyyətinin əsərlərində rast gəlinir;

– diplomatiya suveren dövlətlər arasında qarşılıqlı münasibətlər haqqında elmdir. Əsas məqsəd beynəlxalq münasibətləri, eləcə də digər dövlətlərlə münasibətlərdə öz ölkəsinin maraqlarını bilmək və dərindəndən mənimsəməkdən ibarətdir;

– diplomatiya dövlətlər arasında təmsilçilik və münasibətlər sənətidir.

İdman diplomatiyasına gəldikdə, bir sıra müəlliflər onu resurs və mülayim gücün aləti hesab etməklə, beynəlxalq münasibətlərdə arzuolunan nəticələr əldə etmək bacarığı kimi xarakterizə etmişdir [78, s.10].

İdman diplomatiyası idmanın inkişafı ilə bərabər inkişaf etdi və XXI əsrdə elmi dövriyyəyə qətiyyətlə daxil oldu. Bu aktuallıq, şübhəsiz ki, idmanın bütün dünyanı birləşdirən amil olması ilə bağlıdır. Qeyd edək ki, ingilis filologiyası və ya milli azlıqların hüquqlarının müdafiəsi mitinqinə əhalinin yalnız bəzi təbəqələri maraq göstərəcək. İdman isə bütün cəmiyyəti birləşdirə bilər ki, bu da, onu beynəlxalq ünsiyyətin ən mühüm vasitələrindən birinə çevirir. Həqiqətən də, idman dövlətlər və millətlər arasında sərhədləri silməyə qadirdir. Bu müddəanın davamı olaraq, ABŞ-ın Danimarkadakı keçmiş fövqəladə və səlahiyyətli səfiri C.Keynin sözlərinə istinad etmək olar ki, o, idmanın qarşılıqlı hörmət, bərabərlik və tolerantlıq kimi idealları sayəsində bütün mədəni və etnik fərqləri aradan qaldırmağa qadir olan vasitəçi olduğunu iddia edirdi. Onun fikrincə, məhz bu keyfiyyətlər sayəsində idman öz mesajını bütün digər xarici siyasət metodlarından daha effektiv şəkildə cəmiyyətə çatdırır [64, s.121].

Beləliklə, idmanın mülayim güc vasitəsi kimi istifadə olunduğunu görə bilərik. Bu kontekstdə ondan öz mənafeləri üçün istifadə edən beynəlxalq münasibətlərin subyektləri aşağıdakı məqsədləri qarşıya qoya bilərlər:

1. İdman və onun dəyərlərinin himayəsi altında xarici siyasət əlaqələrinin gücləndirilməsi. O, mədəni mübadiləni təşviq edir və xalqları birləşdirir;

2. İdmandan rəqib dövlətə siyasi təzyiq vasitəsi kimi istifadə edilməsi;

3.İrimiqyaslı idman tədbirləri vasitəsilə ölkənin müsbət imicinin yaradılması. İdman diplomatiyasının mülayim güc vasitəsi kimi rolunu daha dərindən dərk etmək üçün biz sözügedən diplomatiya növünün nə olduğunu müəyyən etməliyik.

Bəzi müəllifləri məsələyə fərqli kontekstdən yanaşaraq, idman diplomatiyasını müəyyən xarici siyasət problemlərinin həlli üçün idmanın köməkçi və ya müstəqil siyasi alət kimi istifadə olunduğu diplomatik fəa-

liyyətin spesifik növü kimi xarakterizə edirlər. Belə ki, müəyyən xarici siyasət məqsəd, niyyət və maraqlarını nümayiş etdirmək məqsədilə, onun dövlətlər arasında diplomatik münasibətlər qurmaq və ya təkmilləşdirmək, başqa ölkənin rəhbərliyinə siyasi təzyiq göstərmək vasitəsi olduğunu vurğulayırlar [83, s.101-103].

Lakin, bir məsələni də unutmaq olmaz ki, idman həmrəyliyi, xüsusən də, son dövr ədəbiyyatlarda təzahür edən Olimpiya barışığı və ya Olimpiya vasitəçiliyi müasir dövrümüzdə bütün planeti birləşdirən yeganə vasitə, qlobal sülhün və əmin-amanlığın mənbəyidir.

Üçüncü minilliyin əvvəllərində idman qlobal bir fenomen kimi bir çox sosial və siyasi funksiyaları yerinə yetirir. O, ilk növbədə, hər bir dövlətin həm iqtisadiyyatı, həm də müdafiə qabiliyyəti üçün çox əhəmiyyətli olan sağlam həyat tərzini özünəməxsus şəkildə tərbiyə edir. Müasir idman sferasına gənc nəslin tərbiyəsi və onun sosiallaşması, vətənpərvərlik hissinin və mənəvi keyfiyyətlərin, fəal həyat mövqeyinin və ictimai proseslərdə iştirakın formalaşdırılması funksiyaları daxildir. Bütövlükdə dövlətin idman uğurları onun vətəndaşlarının əksəriyyətində hökumətin həyata keçirdiyi kursun düzgünlüyü, konkret bir cəmiyyətdə üstünlük təşkil edən dəyərlər sisteminin həqiqət ideyasının yaranmasına kömək edir.

Məhz bu istiqamətdə XXI əsrdə idman diplomatiyası səylərini daha da artırmağa davam edir və obyektiv olaraq, bu gün onun təsirini genişləndirmək və artan populyarlıq üçün bir sıra mühüm səbəblər vardır:

– birinci, ənənəvi diplomatiyanın özü müxtəlif amillərin təsiri altında özünün aparılması prinsipləri və texnologiyaları ilə bağlı ciddi dəyişikliklərə məruz qalır. Əvvəlki tarixi dövrlərdə istifadə edilən və sırf rəsmi dövlət səviyyəsində diplomatik mexanizmlərdən istifadəni nəzərdə tutan klassik diplomatiya modeli bu gün diplomatik səviyyədə müasir fəaliyyətin həyata keçirilməsi üçün mümkün variantlardan yalnız birini təmsil edir;

– ikinci, müasir qloballaşan dünyada idman sahəsində fəaliyyət obyektiv olaraq hər bir dövlətin gündəlik siyasi və diplomatik fəaliyyətinin məcburi tərkib hissəsinə çevrilir və bu, yeni idman növlərinin, o cümlədən növbəti Olimpiya oyunlarının, həmçinin beynəlxalq arenada müxtəlif profilli və ölçülü idman təşkilatlarının nüfuzunun və təsirinin əhəmiyyətli dərəcədə artması ilə ayrılmaz şəkildə bağlılığa malikdir;

– üçüncü, idmanın və diplomatiyanın gələcək inteqrasiyası prosesi, xüsusən də, xaricdə ölkənin müsbət imicinin formalaşdırılması maraqları naminə onlardan kompleks şəkildə istifadə imkanları ilə bağlı olaraq dərinləşir.

Normativ əsasına gəldikdə, Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyində BMT-nin üzv-dövlətləri idmanı davamlı inkişafın mühüm aparıcısı kimi tanıyaraq, tolerantlıq və hörməti təşviq etməklə onun inkişafa və sülhə artan töhfəsini vurğulamışlar. Bununla əlaqədar, BMT Baş Assambleyası 71/1602 saylı Qətnaməsində aktorları Birləşmiş Millətlər sistemini və digər maraqlı tərəfləri inkişaf və sülhü gücləndirmək üçün artan təbliğat və fəaliyyətə töhfə verməyə və təşəbbüslər vasitəsilə 2030-cu il Gündəliyinin həyata keçirilməsinə töhfə verməyə dəvət etdi. Yeri gəlmişkən, diqqətəlayiq haldır ki, idman fəaliyyətinin ən nüfuzlu tənzimləyicisi – 206 milli olimpiya komitəsini (BMT-nin

bütün üzv dövlətlərindən Olimpiya hərəkatının dəyərlərini bölüşən ictimai təşkilatlar, habelə xüsusi statusa malik 13 dövlət tipli ərazilərdən ibarət olmaqla) birləşdirən Beynəlxalq Olimpiya Komitəsidir. Eyni zamanda, BOK-un özü də BMT Baş Assambleyasında daimi müşahidəçi statusuna malikdir, yəni işin bu cür genişləndirilməsində onun rolu məntiqlidir.

Bununla da, Baş Assambleya Birləşmiş Millətlər Təşkilatının İnkişaf və Sülh Naminə İdman üzrə Fəaliyyət Planına uyğun olaraq, səyləri dörd prioritet sahəyə yönəltməyi təklif etdi:

a) inkişaf və sülh naminə idmandan istifadə üçün qlobal əsasları daha da inkişaf etdirmək;

b) bütün inkişaf proqramlarında və siyasətlərində inkişafın və sülhün təşviqi vasitəsi kimi idmanın inteqrasiyasını və əsas istiqamətə uyğunlaşdırılmasını təşviq etmək və dəstəkləmək;

c) innovativ maliyyələşdirmə mexanizmlərinin və çoxtərəfli razılaşmaların təşviqi;

d) monitorinq və qiymətləndirmə alətlərinin istifadəsini təşviq etmək və asanlaşdırmaq.

Bu baxımdan, üzv-dövlətlər, BMT sistemi, beynəlxalq idman federasiyaları və digər maraqlı tərəflər idman, fiziki fəaliyyət və aktiv oyunda birgə fəaliyyət, idmanı özlüyündə məqsəd kimi deyil, daha geniş inkişaf nəticələrinə nail olmaq üçün platforma kimi istifadə edirlər. Fəaliyyət üçün hüquqi münasibətlərin belə tənzimlənməsi şəxsi və şəxsiyyətlərarası sosial inkişaf, sağlamlığın təşviqi, münaqişələrin həlli, mədəniyyətlərarası dialoq, sosial inklüzivlik və iqtisadi inkişaf daxil olmaqla, geniş məqsədlərə hədəflənir.

İdmanın beynəlmiləlləşməsi bu sahədə beynəlxalq hüquq subyektlərinin fəaliyyətində də özünü göstərir: məsələn, dövlətlər idman sahəsində YUNESKO və bir sıra qeyri-hökumət beynəlxalq təşkilatlar – Beynəlxalq Olimpiya Komitəsi (BOK), Dünya Antidopinq Agentliyi (WADA) və s. qurumlar formatında birgə səy göstərirlər.

Beynəlxalq səviyyədə hökumətlər bununla bağlı təklif olunan iki əsas çərçivənin həyata keçirilməsini dəstəkləyiblər: Kazan Fəaliyyət Planı və 2018-2030-cu illər üçün Fiziki Fəaliyyət üzrə Qlobal Fəaliyyət Planı.

Kazan Fəaliyyət Planına aşağıdakı 5 tədbir daxildir:

1. Bədən tərbiyəsi və idman sahəsinə investisiya qoyuluşunun lehinə elmi əsaslandırılmış arqument təqdim etmək üçün informasiya və təbliğat dəstəyi vasitəsinin hazırlanması;

2. Davamlı inkişaf sahəsində prioritet məqsəd və vəzifələrin həyata keçirilməsinə bədən tərbiyəsi, fiziki hazırlığın və idmanın töhfəsini qiymətləndirmək üçün universal göstəricilərin işlənib hazırlanması;

3. İdmanın bütövlüyünü qorumaq üçün idman nazirləri tərəfindən görülən tədbirləri dəstəkləmək üçün beynəlxalq standartları uyğunlaşdırmaq və təkmilləşdirmək (İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiya nəzərə alınmaqla);

4. Qadınların, idmanın, bədən tərbiyəsi və fiziki fəaliyyətin vəziyyətinin monitorinqinin qlobal mexanizminin yaradılmasının məqsədəuyğunluğunun qiymətləndirilməsinin aparılması;

5. İdman siyasətinin həyata keçirilməsi üçün MİNEPS Çərçivə Konsepsiyasına uyğun olaraq, məlumat mübadiləsi üçün klirinq mərkəzinin yaradılması.

Qlobal Fəaliyyət Planı bütün insanların təhlükəsiz və dəstəkləyici mühitə və gündəlik həyatlarında fiziki cəhətdən aktiv olmalarına imkan verən bir sıra imkanlara çıxışını təmin etmək məqsədi daşıyır.

Qlobal hədəf 2030-cu ilə qədər böyüklər və yeniyetmələr arasında oturaq davranışı 15 faiz azaltmaqdır. Bu Qlobal Fəaliyyət Planına əsasən, fiziki hərəkətsizliyin aradan qaldırılmasına sistematik, vahid yanaşma ilə oturaq davranışın azaldılması səyləri 13 Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağa kömək edəcək. Məhz bunlardan idmana ən aydın şəkildə töhfə verə biləcəyi 10 məqsəd birbaşa tənzimetmə vasitəsi sayılması, heç də, təəccüblü deyil.Onlara əlavə olaraq, bu qlobal planda prioritetlər kimi aşağıdakı məqsədlər nəzərdə tutulur:

a) Məqsəd 2 (aclığın aradan qaldırılması);

b) Məqsəd 9 (sənaye, innovasiya və infrastruktur); Məqsəd 15 (yer üzündə həyat);

c) Məqsəd 17 (davamlı inkişaf üçün tərəfdaşlıq).

Bütövlükdə bu Qlobal Plan çərçivəsində həyata keçirilən siyasət tədbirləri kimi aşağıdakıları qeyd edə bilərik:

– bütün yaş qruplarında müntəzəm, qabiliyyətə əsaslanan fiziki fəaliyyətin faydaları haqqında;

– təhlükəsiz məkanlara bərabər çıxışın təmin edilməsi də daxil olmaqla fiziki fəaliyyətə universal çıxışın təşviq edilməsi;

– fərdi, ailə və cəmiyyət səviyyəsində fiziki fəaliyyət imkanlarının artırılması;

– bütün səviyyələrdə fəaliyyət sistemlərinin gücləndirilməsi və s.

Aydındır ki, Kazan Fəaliyyət Planı və 2018-2030-cu illər üçün Fiziki Fəaliyyət üzrə Qlobal Fəaliyyət Planı, Dayanıqlı İnkişaf Məqsədləri ilə üst-üstə düşməklə yanaşı, bir-birini gücləndirir.Yeri gəlmişkən, Qlobal Fəaliyyət Planında üzv-dövlətlərin fiziki fəaliyyət vasitəsilə uşaqların sağlam inkişafını təşviq etmək öhdəliyinə istinad edildikdə, Kazan Fəaliyyət Planına iqtibas olunur.

Beləliklə, bu Qlobal Plan universal əlçatanlığa nail olmaq və fiziki fəaliyyətin səviyyəsini artırmaq üçün maneələri aradan qaldırmaq və fiziki fəaliyyətin qlobal rifahın yaxşılaşdırılmasına töhfəsini maksimum dərəcədə artırmaq üçün daha dərin perspektiv və hərtərəfli fəaliyyət kursu təqdim etməklə Kazan Fəaliyyət Planının daha geniş strateji diqqətini səmərəli şəkildə tamamlayır.

Bu hüquqi tənzimetmə vasitələri hökumətlər və müxtəlif sektorlarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatı sistemi və əlaqədar təşkilatlar, akademik dairələr, idman təşkilatları və digər vətəndaş cəmiyyəti tərəfdaşları tərəfindən təmin edilən təcrübə və biliklərə əsaslanaraq inklüziv proseslər vasitəsilə yaradılmışdır. Bu proqramların özləri də onların həyata keçirilməsini təmin edən legitimlik səviyyəsinə malikdirlər. Bununla belə, davamlı inkişafı təmin etmək üçün geniş siyasi dəstəyə ehtiyac vardır.

Hazırda BMT sistemində idman üzrə işin təşkili baxımından, Kazan Fəaliyyət Planı ətrafında yaxınlaşma artmaqdadır və üzv-dövlətlər onun potensialını siyasətin əlaqələndirilməsi üçün başlanğıc nöqtəsi kimi tanımağa başlayıblar. Məsələn, 2018-ci ildə İnsan Hüquqları Şurasının "İnsan hüquqlarının idman və Olimpiya hərəkatının idealları vasitəsilə təşviq edilməsi" adlı otuz yeddinci sessiyasında qəbul etdiyi 37/18 saylı qətnamədə və konfransda Kazan Fəaliyyət Planı qeyd edilib. İştirakçı-dövlətlər də bu fəaliyyət planını Birləşmiş Millətlər Təşkilatının Kor-

rupsiyaya qarşı Konvensiyasını 2017-ci ildəki yeddinci sessiyasında xatırladıb, üçüncü icra mexanizmini əsas siyasət sahəsi vurğulanıb.

Qeyd edək ki, BMT-nin hökumətlərarası arxitekturası çərçivəsində idmanın inkişaf və sülh naminə istifadəsi üzrə dialoq platforması getdikcə daha da genişlənir. Onun komponentləri bunlardır: Bədən Tərbiyəsi və İdmana Məsul Nazirlərin və Yüksək Vəzifəli şəxslərin Beynəlxalq Konfransı və Daimi Məşvərət Şurası ilə Bədən Tərbiyəsi və İdman üzrə Hökumətlərarası Komitə. Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq Paralimpiya Komitəsi, Beynəlxalq Futbol Assosiasiyası və Beynəlxalq Atletika Federasiyaları Assosiasiyası və vətəndaş cəmiyyəti tərəfdaşları.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf və Sülh Naminə İdman İdarəsinin bağlanması ilə əlaqədar olaraq, idmandan inkişaf və sülh naminə istifadə sahəsində işin əsas hissəsi BMT Katibliyinin İqtisadi və Sosial Məsələlər Departamentinə həvalə edilmişdir. Departament idmanla bağlı müzakirələr üçün Nyu-Yorkda hökumətlərarası mexanizmlərə dəstək verir. 2030-cu il Gündəliyinin nəzərdən keçirilməsini və təqibini, eləcə də yoxsulluq, bərabərsizlik və sosial daxilolma kimi davamlı inkişafın sosial-iqtisadi ölçüləri ilə bağlı bir sıra hökumətlərarası öhdəliklərin həyata keçirilməsini dəstəkləyən aparıcı bölmə kimi, Departament inkişaf və sülh naminə idmanın müxtəlif meyarlarını Baş Assambleyada, İqtisadi və Sosial Şurada və onun məşvərət orqanlarında və yüksək səviyyəli siyasi forumda müvafiq hökumətlərarası müzakirələrə inteqrasiya etmək üçün əlverişli mövqeyə malikdir. Müvafiq maraqlı tərəflər, o cümlədən vətəndaş cəmiyyəti Birləşmiş Millətlər Təşkilatı sistemi və akademik dairələrlə əməkdaşlıq edərək, Departament siyasətin inkişafı və siyasət sahəsində təşəbbüslərin həyata keçirilməsi sahələrində qabaqcıl təcrübələr haqqında məlumatları müəyyən etmək və toplamaq yolu ilə təşkilati və analitik işlərin görülməsi üçün öz imkanlarından istifadə edəcəkdir. Buna baxmayaraq, Departamentin bu sahədə normayaradıcı səlahiyyətlərə malik olmasını, xüsusən onun BMT sistemində beynəlxalq idman təşkilatlarının fəaliyyətini əlaqələndirən mərkəz kimi dəstəyi funksiyasını real təcrübədə görmək, çətin ki, mümkün olsun. Bu sahədə qanunvericilik daha çox milli idman federasiyalarının iştirakı (təşəbbüsü) ilə idman subyektlərinin səlahiyyətindədir.

İdman diplomatiyası həm də insanların bir sıra hüquqları ilə bağlılığını özündə ehtiva edir. Nümunə qismində idman turizmini göstərmək olar. Hətta "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 2.2.10-cu maddəsində idman turizmi idman yarışlarında iştirak etmək və ya idman yarışlarını izləmək məqsədli turizm kimi müəyyən olunmuşdur. Nəzəri baxımdan isə, idman turizmi məqsədindən asılı olaraq, iki yerə – aktiv və passiv növlərə ayrılır. Birnci halda əsas səbəb qismində turistlərin istənilən idman növü ilə məşğul olmaq imkanı çıxış edir. İkinci halda isə səyahətin məqsədi tamaşaçı və azarkeş qismində idman tədbirlərinin keçirildiyi yerlərə baş çəkməkdir. Bəzi hallarda isə idman turizminin konkret növü – fan-turizm fərqləndirilir ki, bu da, idman yarışlarının keçirildiyi yerlərə iştirakçılarla birgə bu və ya digər komandanın fanatı olan şəxslərin səyahətini nəzərdə tutur. Onu da qeyd etmək lazımdır ki, işgüzar, dini, idraki, sağlamlaşdırma turizm növlərində olduğu kimi, idman turizmi də konkret möv-

sümdən asılı olmayaraq, ilin istənilən vaxtında hər hansı tədbirlərin keçirilməsi ilə birbaşa bağlılığa malikdir.

İdman turizmi universal beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə öz təsbitini tapmaqla yanaşı, həm də həyata keçirilən çoxsaylı tədbirlərin obyekti qismində çıxış edir. Nümunə qismində 2004-cü ildə “İdman və turizm – mədəniyyət və turizmin qarşılıqlı anlaşılmasında iki həyatverici qüvvə” adlı şüar altında keçirilən Ümumdünya Turizm Gününü göstərmək olar [11, s.40; 60].

Ölkəmiz də bu məsələyə xüsusi həssaslıqla yanaşaraq, zəruri tədbirlərin görülməsi istiqamətində lazımi addımlar atmaqdadır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2010-cu il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına Dövlət Proqramı” da məhz ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişaf etdirilməsinin təmininə yönəlmişdir. Hətta müxtəlif ölkələrlə bağlanmış ikitərəfli müqavilələrdə də idman turizminə dair müddəalar öz əksini tapmışdır. Məsələn, nümunə qismində 2004-cü il tarixli “Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında” Sazişi göstərə bilərik.

**(davamı var)**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı, Azərnəşr, 1997, 488 s.
2. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Bakı, Azərnəşr, 2011, 400 s.
3. 2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı –https://e-qanun.az/framework/17228
4. Antidopinq Qaydaları – https://www.amada.az/legal/antidopinq-qaydalari/
5. Avropa Şurasının Antidopinq Konvensiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu - http://www.e-qanun.az/framework/2220
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı - https://e-qanun.az/framework/8
7. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqındaAzərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı - https://e-qanun.az/framework/360
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi – https://e-qanun.az/framework/46960
9. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulmasının nizama salınması sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – https://e-qanun.az/framework/8970
10. Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ. Dərslik. II nəşr / Z.H.Əliyevin ümumi redaktəsi ilə. Bakı, “Zərdabi-Nəşr” MMC, 2023, 500 s.
11. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Dərslik. Bakı, 2011, 475 s.
12. Əliyev S.F. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi problemi // “Qanun” jurnalı, 2015, № 2, s.28-35
13. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2011, 760 s.
14. Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa

Şurası Konvensiyası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu - https://e-qanun.az/framework/40411
15. İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu – https://e-qanun.az/framework/34359
16. Məlikova M.F., İsmayılov X.C. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının hüquqi əsasları // Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2012, № 1, s. 5-13
17. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – https://e-qanun.az/framework/42971
18. Nəsibov E.M. Beynəlxalq münasibətlər və dövlətlərin güclərinə görə təsnif olunmalarının əsasları (qlobal və regional miqyasda sülhün təmin edilməsində dövlət gücünün rolu-təsiredici amil kimi). Bakı, "Elm və təhsil", 2013, 320 s.
19. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Qanunu – https://president.az/az/articles/view/1616
20. Qasımova H.A. Xarici əlaqələr hüququ. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2008, 480 s.
21. Ümumtəhsil məktəblərində Şahmat fənninin tədrisinin davam etdirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası təhsil nazirinin əmri – https://edu.gov.az/az/esas-senedler/5718
22. Абашидзе А.Х., Урсин Д.А. Неправительственные организации: международно-правовые аспекты. Москва: РУДН, 2002, 160 с.
23. Абашидзе, А.Х. Универсальные механизмы защиты прав человека. Учеб.пособие для студентов вузов, обучающихся по специальности «Юриспруденция». М.: ЮНИТИ-ДАНА, 2017, 139 с.
24. Алексеев С.В. Международное спортивное право. Учебник для вузов. М.: ЮНИТИ-ДАНА, 2015, 895 с.
25. Алексеев С.В. Олимпийское право. Правовые основы олимпийского движения. Учебник. М.: ЮНИТИ-ДАНА, 2015, 688 с.
26. Анцелиович А.А. Эволюция инструментов Конвенции ЮНЕСКО по борьбе с допингом в спорте с целью повышения ее эффективности // Вестник спортивной науки, 2018, №5, с. 77-80
27. Барабанова Е.А. Допинг как проблема в современном спорте // Юридическая наука в Китае и России. Ежегодник 2016. №1. М., 2017, с. 146-152
28. Барабанова Е.А. Актуальные вопросы антидопингового регулирования в России: анализ и предложения // Спорт: экономика, право, управление. М.: Юрист, 2019, №3, с. 16-19
29. Барабанова Е.А. Допинг как проблема общественного здравоохранения: шведский опыт // Юридический мир. М.: Юрист, 2019, №8, с. 57-59
30. Бирюков П.Н. Имплементация в РФ и Испании международных норм о борьбе с контрафактными лекарствами // Вестник юридического факультета Южного федерального университета. Издательство ЮФУ, 2019, № 2, с. 47-51
31. Бирюков П.Н. Имплементация в государствах-членах Европейского Союза правил о Европейском следственном ордере // Вестник Санкт-Петербургского университета. Право. Издательство СПбГУ. №3. 2019. - С. 556-576.
32. Бирюков П.Н. Право международных организаций: учеб.пособие для академического бакалавриата. М.: Издательство Юрайт, 2018, 170 с.
33. Бирюков П.Н. Международное право. Учебник. В 2 т. Том 1. Том 1. 10-е изд. пер. и доп. М.: Издательство Юрайт, 2018, 364 с.
34. Бирюков П.Н. Международное право. Учебник. В 2 т. Том 2. Том 1. 10-е изд. пер. и доп. М.: Издательство Юрайт, 2018, 298 с.
35. Бирюков П.Н. Особенности оборота лекарственных средств в Германии // Вестник Российской академии интеллектуальной

собственности. М.: Издательство «Российская академия интеллектуальной собственности», 2018, №4, с. 48-58.
36. Бриллиантова А.М., Кузин В.В., Кутепов М.Е. Энциклопедия олимпийского арбитража: Атланта-Нагано-Сидней. М.: Физическая культура и Спорт, 2005, 348 с.
37. Гаврилова Е.А. Внезапная смерть в спорте. М.: Советский спорт, 2011, 196 с.
38. Гусов К.Н., Шевченко О.А. Спортивное право. Правовой статус спортсменов, тренеров, спортивных судей и иных специалистов в области физической культуры и спорта. М.: Проспект, 2011, 95 с.
39. Жабин Н.А. Борьба с допингом в России // Спорт: экономика, право, управление, Юрист, 2012, №1, с. 20-24
40. Захарова Л.И. Всемирное антидопинговое агентство как субъект международного спортивного права // Четвертая международная научно-практическая конференция «Спортивное право: перспективы развития»: материалы конференции. М., 2010, с. 36-42.
41. Захарова Л.И. Правовой статус и элементы международной правосубъектности МОК // Евразийский юридический журнал, 2014, № 7, с. 75-78
42. Иглин А.В. Спорт и право (международный аспект). Монография. М.: Юрлит-информ, 2012, 296 с.
43. Ищенко С.А. Правовая характеристика и система спортивных арбитражных судов (САС) в международном спортивном движении (МСД) // Государство и право, 2002, №12, с. 78
44. Ищенко С.А. Совершенствование правового статуса неправительственных объединений в международном спортивном движении // Право и политика, 2001, №10, с. 139-140
45. Куринной И.И.Игры, угодные богам. М.: Астрель АСТ; Владимир: ВКТ, 2010, 320 с.
46. Кудашова И.В. Административная ответственность за правонарушения в сфере подготовки спортсменов // Вестник Казанского юридического института МВД России, 2015, №1, с. 28-33
47. Кузнецова Е.В. Международные неправительственные организации: правовые вопросы. Учеб.пособие для студентов юрид. спец. Мн.: БГУ, 2006, 115 с.
48. Маргиев В.И. Международные организации (теоретические аспекты). Майкоп: ГУРИПП «Адыгея», 2001, 476 с.
49. Миллер Д. Официальная история Олимпийских игр и МОК от Афин до Пекина (1894-2008). М., 2008, 592 с.
50. Морозов В. И., Косолапов В. А., Федорович С. В. Допинг в спорте: Методическая разработка. М., 2015, 345 с.
51. Олимпийская энциклопедия. Гл. ред. С.П.Павлов. М.: «Советская Энциклопедия», 1980, 415 с.
52. Песков А.Н., Брусникина О.А. Проблемы борьбы с допингом в спорте: монография. Москва: Проспект, 2016, 128 с.
53. Пилипенко Д.Преступления в спорте. М.: Гелеос, 2007, 256 с.
54. Право международных организаций. Региональные, межрегиональные, субрегиональные межправительственные организации: учебник для бакалавриата и магистратуры. Под ред. А.Х.Абашидзе, А.М. Солнцева. М.:Издательство «Юрайт», 2018, 331 с.
55. Скворцов А.А. Причинение вреда жизни и здоровью при занятиях спортом. Проблемы уголовно-правовой квалификации. М.: ВолтерсКлувер, 2006, 110 с.
56. Сохин Ю.Г. Олимпийская хартия как правовая основа функционирования МОК // Вестник РУДН. Серия Юридические науки, 2003, №2, с. 90-94
57. Спортивная медицина. Учеб.пособие. Под ред. В.А.Епифанова. М.: ГЭОТАР-Медиа, 2006, 336 с.
58. Тимец М.В. Всемирное антидопинговое агентство: структура и основные направления деятельности // Спорт: экономика, право, управление, 2005, № 4, с. 23-26
59. Фармакология спорта. Под общ.ред. С.А.Олейника, Л.М.Гуниной, Р.Д.Сейфуллы. К.: Олимпийская литература, 2010, 640 с.

60. Шанин Ю.В. История античного атлетизма. Санкт-Петербург: Издательство «Алетейя», 2017, 260 с.
61. Шевченко О.А. Правовые проблемы дисквалификации профессиональных спортсменов // Государство и право: теория и практика, 2005, № 3, с. 52-63
62. Штейнбах В.Л. Оборотная сторона медали. М.: Человек, 2008, 416 с.
63. Юркина Т.П. Уголовно-правовая оценка незаконного оборота допинга // Вестник Омского университета. Серия «Право», 2013, №1, с. 222-224.
64. Ahmadi N., Ljungqvist A., Svedsäter G. Doping and public health. Abingdon: Routledge, 2016, 151 p.
65. Andrén-Sandberg Á. Encyclopedia of Anti-Doping in an Era of Evidenced Based Medicine: Scientific literature made available from January 2000 through December 2015. Stockholm: Karolinska Institutet at Karolinska University Hospital, 2016, 4503 p.
66. Berendonk B. Doping Dokumente: Von der Forschungzum Betrug. Springer Verl. Berlin: Heidelberg, 1991, 492 p.
67. Blackshaw I. Fair play on and off The Field of play: Settling Sports Disputes Through the Court of Arbitration for Sport // The International Sports Law Journal, 2006, No 3-4, pp. 107-117
68. Chatterjee N., Kaibi C., Kraljevic I., Lerner A. ISGGO: A Proposal for Sport Governance Oversight // CAS Bulletin 2017/1. Lausanne 2017, pp. 6-33
69. Croombridge N. Sports Criminology: A Critical Criminology of Sport and Games (New Horizons in Criminology). Bristol: Policy Press, 2016, 204 p.
70. Dimeo P. A History of Drug Use in Sport 1876-1976: Beyond Good and Evil. Oxford: Routledge: Taylor & Francis, 2008, 153 p.
71. Henne K. WADA, the Promises of Law and the Landscapes of Antidoping Regulation // Political and Legal Anthropology Review, 2010, Vol. 33, No. 2, pp. 306-325
72. Houlihan B. Anti-Doping policy in sport: The politics of International policy co-ordination // Public Administration, 1999, Vol. 77, No. 2, pp. 311-334
73. Houlihan B.M.J., Hanstad D.V.Strengthening global anti-doping policy through bilateral collaboration: the example of Norway and China // International Journal of Sport Policy and Politics, 2015, No 7, Issue 4, pp. 587-604
74. Houlihan B. The Evolution of Performance-Enhancing Drug Use in Sport. In Emerging Drugs in Sport. Eds., O.Rabin, O.Corazza. Geneva: Springer, 2021, pp. 3-15
75. Gandert D. The Battle over the Osaka Rule // The International Sports Law Journal, 2012, No 1-2, pp. 109-120
76. Kremenik M., Onodera S., Nagao M., Yuzuki O., Yonetani S. A Historical Timeline of Doping in the Olympics (Part II 1970-1988) // Kawasaki Journal of Medical Welfare, 2007, Vol. 12, No. 2, pp. 69-83
77. Latty F. Transnational Sports Law // The International Sports Law Journal, 2011, No 1-2, pp. 34-38
78. Nye J. Soft Power: The Means to Success in World Politics. Public Affairs, 2004, 191 p.
79. Paoli L. Doping and Anti-Doping: Neglected Issues in Criminology // European Journal of Crime, Criminal Law and Criminal Justice, 2012, Vol. 20, Issue 3, pp. 231-238.
80. Paoli L., Donati A. The Sports Doping Market. Understanding Supply and Demand, and the Challenges of Their Control. New-York: Springer, 2014, 304 p.
81. Wrynn A. The Human Factor: Science, Medicine and the International Olympic Committee, 1900-70 // Sport in Society, 2004, Vol.7, No. 2, pp. 211-231.
82. L'organisation des jeux Olympiques et Paralympiques 2024: questions de droit public. Sous la direction de Sabine Boussard, Laurence Folliot-Lalliot et Franck Latty. Paris, Dalloz, 2024, 300 p.
83. Poracchia D., Rizzo F., Frederic-Buy, Marmayou J.M. Droit du sport. 7e édition. Paris, LGDJ, 2023, 950 p.
84. Sport et droit international (aspects choisis). Sous la direction de Franck Latty, Jean-Michel Marmayou, Jean-Baptiste Racine.Marseille, Presses Universitaires d'Aix-Marseille, 2016, 344 p.

## РЕГУЛИРОВАНИЕ ДОГОВОРОВ О СПОРТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ В МЕЖДУНАРОДНОМ И НАЦИОНАЛЬНОМ ПРАВЕ

**Мамедзаде Туран Аламат оглу**

В статье исследуется вопрос регулирования договоров спортивной деятельности в международном и национальном праве. Отмечается, что целью исследования является рассмотрение основных особенностей международных норм и других международных механизмов в области спорта, а также основных особенностей законодательства Азербайджанской Республики во взаимодействии с ними, с теоретической, правовой и практической точки зрения.

Также рассматриваются проблемы, связанные с внедрением международных механизмов в сфере спорта в национальное законодательство Азербайджанской Республики. При этом особое внимание уделяется роли универсальных международных механизмов в регулировании сотрудничества в сфере спорта и его правовым аспектам.

**Ключевые слова:** спортивная деятельность, международный договор, национальное законодательство, спортивное право, олимпийское движение, международное сотрудничество, спортивно-правовые нормы.

## REGULATION OF CONTRACTS ON SPORTS ACTIVITIES IN INTERNATIONAL AND NATIONAL LAW

**Mammadzada Turan Alamat oglu**

The article examines the issue of regulation of sports activity contracts in international and national law. It is noted that the purpose of the research is to examine the main features of international norms and other international mechanisms in the field of sports, and the main features of the legislation of the Republic of Azerbaijan in interaction with them, from a theoretical, legal and practical point of view.

Also, problems related to the implementation of international mechanisms in the sphere of sports into the national legislation of the Republic of Azerbaijan are considered. At the same time, special attention is paid to the role played by universal international mechanisms in regulating cooperation in the field of sports and its legal aspects.

**Key words:** sports activity, international agreement, national legislation, sports law, Olympic movement, international cooperation, sports-legal norms.

## SPOR FAALİYETLERİNE İLİŞKİN SÖZLEŞMELERİN ULUSLARARASI VE ULUSAL HUKUKTA DÜZENLENMESİ

**Memmedzade Turan Alamat oğlu**

Makalede spor faaliyet sözleşmelerinin uluslararası ve ulusal hukukta düzenlenmesi konusu incelenmektedir. Araştırmanın amacının, spor alanındaki uluslararası normların ve diğer uluslararası mekanizmaların temel özelliklerini ve bunlarla etkileşim halinde olan Azerbaycan Cumhuriyeti mevzuatının temel özelliklerini teorik, hukuki açıdan incelemek olduğu kaydedildi. ve pratik bakış açısı.

Ayrıca spor alanındaki uluslararası mekanizmaların Azerbaycan Cumhuriyeti'nin ulusal mevzuatına uygulanmasına ilişkin sorunlar da ele alınmaktadır. Aynı zamanda, evrensel uluslararası mekanizmaların spor alanındaki işbirliğini ve bunun hukuki yönlerini düzenlemede oynadığı role özel önem verilmektedir.

**Anahtar kelimeler:** spor faaliyeti, uluslararası anlaşma, ulusal mevzuat, spor hukuku, olimpik hareket, uluslararası işbirliği, spor-hukuk normları.